**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**Azərbaycan Turizm və Menecment Universiteti**

**Hörmətli tədqiqatçılar!**

Ümummilli lider H.Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm və Menecment Universiteti 05-06 may 2023-cü il tarixdə **"TURİZM VƏ REKREASİYA XXI ƏSRDƏ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR"** mövzusunda VI Beynəlxalq elmi-praktik konfrans keçirir.

Konfransın keçirilməsində əsas məqsəd müasir dövrdə turizmin müxtəlif sahələrində qarşıya çıxan problemlərin müəyyənləşdirilməsi və onların aradan qaldırılması yollarının müzakirə edilərək tətbiq üçün qəbulu və yeniliklərin daxil edilməsi istiqamətində perspektiv imkanların müzakirə edilməsidir.

**Konfransda aşağıdakı istiqamətlər üzrə məruzələr dinləniləcək:**

1. Heydər Əliyev və Azərbaycan turizmi
2. Turizm və rekreasiya ehtiyatlarının tədqiqinin nəzəri və praktiki əhəmiyyəti
3. Turizm bazarı: müasir vəziyyət, problemləri və inkişaf perspektivləri
4. Turizm üçün kadr hazırlığı: müasir vəziyyəti və problemləri
5. Turizmdə informasiya texnologiyalarının tətbiqi
6. Otel və restoran biznesinin vəziyyəti və problemləri
7. Turizm biznesinin təşkili və idarəedilməsi
8. Turizm mədəniyyətlərarası dialoq vasitəsi kimi
9. Turizmin inkişafında dövlət və yerli özünü idarəetmə orqanlarının rolu

Konfransda iştirak etmək üçün **28 fevral 2023-cü il** tarixinədək Qeydiyyat formasını dolduraraq və məqalənin qısa məzmununu (xülasə) elektron poçt (conference-2023@atmu.edu.az ) vasitəsilə təşkilat komitəsinə göndərməyinizi xahiş edirik.

**Qeydiyyat forması:**

- Adı,soyadı,ata adı;
- Elmi dərəcəsi;
- İş yeri, vəzifəsi;
- Poçt ünvanı (iş və ev);
- Telefon, faks ( şəhər kodu göstərilməklə);
- Elektron ünvan;
- Məruzənin mövzusu;
- İstiqaməti;

- Texniki vasitələrdən istifadənin vacibliyi.

Təşkilat komitəsi proqrama uyğun olaraq məruzələrin seçimini və proqrama daxil edilməsi hüququnu öz üzərinə götürür, redaksiya heyəti isə proqrama daxil edilmiş məruzələrin redaktə olunması işini həyata keçirir. Elmi səviyyəsi tələblərə uyğun olmayan materiallar məruzə üçün qəbul edilmir.

Konfransın işçi dili: azərbaycan, türk, rus və ingilis dilləridir.

Məqalənin tam mətni elektron şəkildə **31.03.2023**-cü il tarixinədək conference-2023@atmu.edu.az elektron ünvanına göndərilməlidir.

**Məqalələrin tərtib olunma qaydaları:**

Hər bir müəllif konfransa yalnız bir məruzə təqdim edə bilər.

Məruzələr Microsoft Word 2007 və ya daha son versiyada hazırlanmalıdır.

Məruzələrin maksimum həcmi – 10 səhifə (formula, cədvəl, şəkil, iqtibas, xülasə və açar sözlər daxil olmaqla), sətirlərarası məsafə 1,5 olmalıdır.

Səhifə aşağı ölçülərdə qurulmalıdır: yuxarıdan – 26 mm, aşağıdan – 20 mm, soldan – 20 mm, sağdan – 20 mm, kağız ölçüsü – A4.

Məruzənin başlığı Times New Roman 14, qalın (Bold) şriftlə böyük hərflərlə yığılıb mərkəzdə yerləşdirilməlidir. Sonrakı sətir boş saxlanmalıdır.

Akademik vəzifə, elmi dərəcə, müəllifin adı və soyadı Times New Roman 13, qalın (Bold) və maili (İtalic) şriftlə yığılıb mərkəzdə yerləşdirilməlidir.

Universitet, təşkilat, idarə Times New Roman 13, qalın (Bold) və maili (İtalic) şriftlə yığılıb mərkəzdə yerləşdirilməlidir. Sonrakı sətir boş saxlanmalıdır.

İngilis dilində 10 sətrə qədər annotasiya Times New Roman 12, abzasda 12 mm boşluq buraxılmaqla, maili (İtalic) şriftlə yığılmalıdır. Sətirlərarası məsafə 1,5 olmalıdır.

İngilis dilində 5 açar söz Times New Roman 12, abzasda 12 mm boşluq buraxılmaqla, maili (İtalic) şriftlə yığılmalıdır. Sətirlərarası məsafə 1,5 olmalıdır. Sonrakı sətir boş saxlanmalıdır.

Əsas mətn Times New Roman 12 şriftlə, abzasda 12 mm boşluq buraxılmaqla yığılmalıdır. Sətirlərarası məsafə 1,5 olmalıdır.

Başlıqaltı Times New Roman 12, qalın (Bold) şriftlə yığılıb mərkəzdə yerləşdirilməlidir. Əvvəlki və sonrakı sətirlər boş saxlanmalıdır.

Düsturların rəqəmlə nömrələnməsi mötərizədə (1), (2)... göstərməlidir və səhifənin sağ tərəfində yerləşdirilməlidir.

Cədvəllərin rəqəmlə nömrələnməsi səhifənin sağ tərəfində yerləşdirilməlidir. Cədvəlin başlığı mərkəzdə yerləşdirilməlidir. Əvvəlki və sonrakı sətirlər boş saxlanmalıdır.

Əsərdən gətirilən sitat mətnin içərisində yerləşdirilməlidir və onun səhifəsi göstərilməlidir [5, s. 23].
Ədəbiyyat siyahısındakı ədəbiyyatın sıra sayı rəqəmlərlə göstərilməlidir, Times New Roman, 12 şriftlə yığılmalıdır.

Konfrans haqqında məlumat Azərbaycan Turizm və Menecment Universitetinin rəsmi saytında (http:// www.atmu.edu.az) və rəsmi facebook səhifəsində (www.facebook.com/atmu.official/?fref=ts) yerləşdirilmişdir.

Sonrakı fəaliyyətlər və təşkilati tədbirlər haqqında əlavə məlumat veriləcək.

Əlaqə telefonu: (+994 12) 5644233 (134)

Ünvan: Bakı, Koroğlu Rəhimov 822/23

Email: conference-2023@atmu.edu.az

**Təşkilat Komitəsi**